

## VAQİF OSMANOV

## GƏLDİM DOĞMA YURDA...

Salam, qoca Qafqaz, dəliqanlı çay,
Salam, zirvədə qış, yaşıl düzdə yay,
Salam, ay şəlalə, suda çimən Ay,
Mənə cənnətsiniz - Zəmzəmli İrəm,
Gəldim doğma yurda bir salam verəm.

Salam, məğrur qartal, qanadını gər,
Salam, dağ keçisi - qayada öndər,
Salam, qaratoyuq, oxu hər səhər,
Dinləyim, odlanım, qoy olum Kərəm,
Gəldim doğma yurda bir salam verəm.

Salam, al lalələr - hicran xallılar,
Salam, bənövşələr - nazı ballılar,
Salam, çinar, palıd - zümrüd yallılar,
Sərin kölgənizdə nəfəsi tərəm,
Gəldim doğma yurda bir salam verəm.

Salam, müdrik babam - qılınc qeyrətli,
Salam, nurlu nənəm - Sənəm söhbətli,
Salam, el gözəli - polad ismətli,
Yurdumda sayıq ol, ey igid ərən,
Gəldim doğma yurda bir salam verəm.

Salam, doğma kəndim - ay tanış qoxu,
Salam, ay qəbristan - əbədi yuxu,
Salam, ay atamın, anamın ruhu,
Sizin aranızda boş qalmış yerəm,
Gəldim doğma yurda bir salam verəm.

Salam, ana torpaq, oğluna yer ver,
Salam, son beşiyim - bir qəbirlik yer,
Salam, başdaşıma yazılan şeir...
Tale heç qoymadı bir nəfəs dərəm,
Gəldim doğma yurda ruhumu verəm.

Vətəndi sərvətim - milyonçuyam mən,
Bu müqəddəs yurda can borcuyam mən,
Olumdan ölümə bir yolçuyam mən,
Tez-tez xatırlansam, vallah, ölmərəm,
Gəldim doğma yurda borcumu verəm...

*27.04.2018.*

## SƏRÇƏ

Nə olsun, durnalar, hacıleyləklər
Sadiq sərçələrdən çox hörmətlidi?
Sərçəyə neylər ki, soyuq ürəklər?
Qeyrətli quşcığaz dəyanətlidi.

Bağların halını qönçədən soruş -
Necə meyvə olur ağ tumurcuqlar?!
Mübarizə nədir - sərçədən soruş,
Köçəri nə bilir nədir şaxta, qar?!

Nəmli səngərlərdə neçə min ərən
Baş-başa durdular - Vətən yaşadı.
Vətəndə doğulan, Vətəndə ölən,
Sərçə də bir Vətən vətəndaşıdı...

*dekabr, 2017*

## TƏMƏNNA HÖRMƏTƏ ELÇİ GƏLƏNDƏ...

Dəyişib hörmətin ünvanı daha,
Az qalıb "Qırmızı kitab"a düşsün.
Saxta təbəssümün dəyəri baha,
Gülümsə, cib tərpət, işin ötüşsün.

Var-dövlət dostluğa ölçü olandan,
"Örtülü bazar"lar - dostluq meydanı.
Təmənna hörmətə elçi gələndə,
Lap başda oturtduq acgöz şeytanı.

Məmur kabineti cənnət sayandan,
Kasıbı aparmır "İrəm"ə yollar.
Rüşvətxor rüşvəti hörmət sayandan,
Qarmağa da gəlmir, hey üzür dollar.

***dekabr, 2017***

## *DÜŞÜNÜRƏM DƏRİN-DƏRİN...*

Köçkün yurddan köçdü qartal,
Yuvasında fal qalmadı.
Topxanada arıların
Dodağında bal qalmadı.

Həsrət qaldıq cənnət yurda,
Dadsızlaşdı "Rast" da, "Şur" da.
Axtarardıq xalı orda,
"İrəvanda xal qamadı".

Tərs fırlanır çərxi - dövran,
Qızıl, almaz - nazlı canan.
Perik düşüb əhdi-peyman,
Sevənlərdə hal qalmadı.

Düşünürəm dərin-dərin,
Papağım da tapmır yerin.
Başlarında nənələrin,
Kələğayı, şal qalmadı.

Bir bağbanam, zəhmət-pərim,
Heç qurumur alın tərim.
Çürüyubdu dəymişlərim,
Bağ-bağçamda kal qalmadı.

Dillənmədim - key dedilər,
Haqq istədim - səy dedilər.
Yaltaqlarsa hey yedilər,
Bozdarlara yal qalmadı...

***noyabr, 2017.***

## *RÜBAİLƏR*

Sən cəlladsan, sinən edam kötüyü,
Başımı qoyaram, götür örtüyü.
Ölümdən qorxmayır həqiqi sevgi,
Çiçəkləyər sevsə adam kötüyü.

***

Aldatdı, oynatdı canan Kərəmi,
Olmadı anlayan, qanan Kərəmi.
Kərəmlər sevsə də keşiş qızını,
Əslilər sevməzlər yanan Kərəmi.

***

Zahiri görünüş mifdi, nağıldı,
Sevgisiz məbədlər uçdu, dağıldı.
İnsanı yaşadan insani hisslər,
Dünyanı fırladan qüvvə ağıldı.

***

Sərinlik gətirən mehdi gözəllik,
Gülün yanağında şehdi gözəllik.
Gəncliyi yadına düşən babamın,
Sinəsindən qopan "ehh..."di gözəllik.

***

Nurani bir qoca arxanca baxdı,
Qınadı taleyi, iqbalı, vaxtı.
Heyif, - dedi qoca, - gec doğulmusan,
Eybi yox, nəvəmin gül açar baxtı.

***

Bardakı gözəlin ürəyi ondu,
Uçaraq qucaqdan qucağa qondu.
Ölüb ruhun sənin, çılpaq quşcığaz,
Axı gözəlliyin doqquzu dondu.

***

Kösöv qoşa yanar, ocaq yaradar,
Əllər qoşalaşar, qucaq yaradar.
Namusla, ismətlə qoşa yaşayan
Atalar, analar qoçaq yaradar.

***

Gecə barı... Zil qaranlıq - yuxulu bir dünya kimi,
Uyuyubsan bu aləmdə baldan şirin röya kimi.
Xumar gözlər ayılanda bu yuxudan gec olacaq,
Çılpaq gözəl, sən qumara qoyulmusan əşya kimi.

## *ŞƏHİD BAYATILARI*

Qurban boyuna, şəhid,
Düşdük oyuna, şəhid.
Dörd bacı həsrət qaldı,
Qardaş toyuna, şəhid.

Ağırdı cəbrin, şəhid,
Qurtarmır səbrim, şəhid.
Gül - miçəklə bəzənmiş
Qiblədi qəbrin, şəhid.

Elin pənahı - şəhid,
Azad sabahı - şəhid.

Düşmənləri tutacaq,
Ananın ahı, şəhid.

Qələbə acı - şəhid.
Qeyrət ağacı - şəhid.
Gözü yaşlı bacının,
Başının tacı - şəhid.

Yuyaq bu suçu, şəhid,
Udaq vuruşu, şəhid.
Boynbükük qalmasın,
Ata duruşu, şəhid.

Vətənin sağı - şəhid,
Əsir torpağı - şəhid.
Yağıya çəkəcəyik,
Çal - çarpaz dağı, şəhid.

Ata qüruru - şəhid,
Məzarın nuru - şəhid.
Tezliklə göstərərik,
Düşmənə zoru, şəhid.

Atanın təni - şəhid,
Ananın dini - şəhid.
Ancaq kasıbmı çəksin,
Vətən dərdini, şəhid?

Elin and yeri - şəhid,
Ocağı, piri - şəhid.
İntiqam alacağıq,
Yol yoxdu geri, şəhid.

Ağrıyır haran, şəhid?
Sağalar yaran, şəhid.
Bütöv Vətən olarıq,
Ruhu nigaran şəhid.

## *MƏZƏLİ SEVGİ*

Heç əlimdən tutmadın,
Boş qalmış əli sevdin.
Oxuyardım: "Ləli yar",
Yarı yox, ləli sevdin.

Sən ağıydın üzümün,
Qarasıydın gözümün.
"Yox!"a yoxmuş dözümün,
Ancaq "hə", "bəli" sevdin.

Dedilər dindi sevgin,
Mən neynirəm belə din?
Məni dəli elədin,
Başqa bir dəli sevdin.

Çıraqdın - nurun oldum,
Ocaqdın - qorun oldum.
Sənin donorun oldum,

Sən isə zəli sevdin.
Düzgün çəkmir tərəzin,
Ağır gəlir qərəzin.
Acı hicran - çərəzin,
Sən lap məzəli sevdin...

## *XALQ MAHNILARI ÜSTÜNDƏ...*

Kaş olaydım gül yerinə,
Sinəndəki tül yerinə.
Oxuyum bülbül yerinə:
"Kətan köynək, nazik bədən."

Zülm edirsən, üzün gülür,
Çəkdiyimi ürək bilir.
Qoy gizlənim, anan gəlir,
"Aralıqda söz olmasın."

Sevgi bəzək illərimə,
Ürək bənddi bircə himə.
Baxıb demə tellərimə:
"Əvvəlki məhəbbət hanı?"

***2007***

## *NAĞILLAR DA YALAN İMİŞ...*

Hey qırılır beşiyimiz bu dünyanın dayaqları,
Sınıq - salxaq bu beşiyin yoxdu daha etibarı.

Gözləyirik gah Simurğu, gah ağ atlı Nərbalanı,
Yalan imiş uşaqlığın üç almalı nağılları.

Acgöz aşiq qul olandan sevgiyə yox, mala, mülkə,
Məcnunların, Leylilərin əyri qalıb düz ilqarı.

Çox Məhəmməd tanıdım mən, layiq deyil öz adına,
Ona görə uca dağlar yaxınlaşmır bizə sarı.

Dəli dedik el qeyrəti çəkənlərə Çənlibeldə,
Dəlilərin nəvələri çalıb - çapır bu diyarı.

Yazıq kəndli əkir, biçir, tərlə yuyur torpağını,
Halallığa inananın ələ gəlmir halal barı.

Nizamilər, Füzulilər yaratdılar söz cənnəti,
Məddahların əlindədir müdriklərin söz gülzarı.

Fikir yükü Səməndərtək yananların çiynindədir,
Yaşayacaq Cavid, Sabir, Məmməd Araz, Bəxtiyarı.

Bir örnəkdir Günəş kimi təmənnasız nur yayanlar,
Vicdan, qeyrət, namus, ismət - insanlığın iftixarı.

El gözəli, saçlarında qarı görüb sən Vaqifin,
Təəssüflə demə: "Gəldi ömrümüzün son baharı."

***01.02.2018.***

## *"AĞ ATLI OĞLAN"IN NAĞILI*

***(Xaqaniyə nəzirə )***

Sevdi nazir qızını bir aşiq bəxtəvər oldu,
Güzaranı güldü üzə - şipşirin bal, şəkər oldu.

Hər gecə xumarlandı qaynatanın villasında,
Hər zülmət gecə ona bir Günəşli səhər oldu.

Doktor oldu, fırlandı alimlərin cərgəsində,
Amma elmdən, bilikdən bu bədbəxt bixəbər oldu.

Küt beyni ilə təmsil elədi Vətən elmini,
Daydayın hesabına lap məşhuri - bəşər oldu.

Qaynatanın sərvəti şirinlik qatdı ömrünə,
Ələ baxan quzutək məlėdi, südəmər oldu.

Bərq vuran otaqlarda yaşadı, unuduldu kənd,
Özgələr doğmalaşdı, doğmalar özgələr oldu.

Yaddan çıxdı doğma ev, ata, ana, qardaş, bacı,
Səxavətli "papaşa" supermen - şiri - nər oldu.

"Çapırdı" küçələrdə, heç bilmirdi əyləc nədir,
"CİP" ağ atlı oğlançün cilovsuz ağ kəhər oldu.

Eyvah! Dedilər nazir tutulub rüşvət alanda,
"Böyük elm xadimi"nin yediyi qəm - kədər oldu.

Daydayısız yaşamaq nə dözülməz bəla imiş?
O gündən cənnət həyat cəhənnəmdən betər oldu.

Öldü Məcnun "sevgi"si, "mamaşa"ya pərəstiş də,
Əllər cibə yük oldu, xoş çağlar dərbədər oldu.

Fəryad etdi, inlədi: "Qara bəxtim oyanmazmı?"
Zarıdığı ağı da "Şikəsteyi - Qəhər" oldu.

Güvənə bilməzdi o, öz ağlına, zəkasına,
Bu manqurt xislətlinin ömrü lap müxtəsər oldu.

Öz gücüylə ucalan zirvədə yaşar həmişə,
Binəvanın zirvəsi qaranlıq dərələr oldu.

Vaqifin hər sözündə həqiqət axtaran dostum,
Əldə etdiyin inci, de, nəyə bərabər oldu?..

***may, 2017***

## *YENI QADAĞA*

"Kim dedi üç uşaq doğasan gərək",
Söylədi məclisdə bir iblis - "mələk".
Yüz ölçüb bir biçən haqqsevər fələk,
Nə üçün yaratdın anlaqsız bəndə?

Tanıyın kimdir o. Gözləri tordu,
Analıq hissindən uzaq nankordu.
Bir anda tərpəndi içinin qurdu,
Analar layiqmi belə rişxəndə?

Vətəni yaşadar cəsarət, hünər,
Ərənlər böyütmək yasaqmı məgər?
Günbəgün çoxalır ucuz yengələr,
Seçici, ayıq ol, vəkil seçəndə.

Dünən şəhid verdin, eloğlu, düşün,
Kimin ümidinə qalıbdı işin.
Yeni "aqronom"la məsləhətləşin,
Yeri şumlayanda, toxum səpəndə.

İtirdik səbirin dadı - duzunu,
Əridə bilmədik qalın buzunu.
Gözlədik Lazımı illər uzunu,
Bələdçimi lazım, görünən kəndə?!.

***19.05.2018.***